**Kurbanov H.S., Aliyev A.J.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.72.67-76**
**UOT : 347.965.4**

# Constitutional foundations of advocacy and advocacy actıvıty in the Republic of Azerbaijan

**Abstract:** The article is devoted to the constitutional foundations of the legal profession and advocacy. As a result of the research, the author comes to the conclusion that the legal profession is one of the important institutions of the modern Azerbaijani state and civil society. Advocacy and advocacy are based on such constitutional principles as legality, equality, democracy, priority of human and civil rights and freedoms, etc., as well as on independence, self-government, confidentiality, adherence to legal ethics, voluntariness of relations between lawyers and persons, those turning to them for legal assistance and other special industry principles. According to the author, basing the legal profession and advocacy on these principles, revealing their potential in the context of constantly changing social relations, will contribute to the further improvement of the institution of advocacy and advocacy.

**Keywords:** Institute of Advocacy; lawyer; advocacy activity; defender; qualified legal assistance; constitutional right to defense.

## References

1. Constitution of the Republic of Azerbaijan. Baku, Huquq Yayin Evi Publ., 2018, 92 p. (in Azerbaijani).

2. Criminal Procedure Code of the Republic of Azerbaijan. Baku, Ganun Publ., 2022, 640 p. (in Azerbaijani).

3.Code of Administrative Offenses of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/ framework/46960 (in Azerbaijani).

4. Code of Administrative Offenses of the Republic of Azerbaijan. Available at: https://e-qanun. az/framework/46956 (in Azerbaijani).

5. Civil Procedure Code of the Republic of Azerbaijan. Available at:https://e-qanun.az/framework/46945 (in Azerbaijani).

6.Law of the Republic of Azerbaijan on state protection of persons involved in criminal proceedings. Available at: https://e-qanun.az/framework/5098 (in Azerbaijani).

7.Law of the Republic of Azerbaijan "On lawyers and advocacy practice".Available at:https://e-qanun.az/framework/257 (in Azerbaijani).

[♦]**Kurbanov Gabil Surkhay oglu** - Doctor of Juridical Sciences, Professor, Chairman of the Free Trade Union of ANAS (Azerbaijan). E-mail: professorqurbanov@yandex.com
**Aliyev Aydin Jamil oglu** – PhD in Law, Associate Professor, a member of the Expert Council of thepublic legal entity of the Institute of Law and Human Rights (Azerbaijan). E-mail: aydin.vk@gmail.com

8.Aliyev A.J.On determining the place of the advocacy profession in ensuring constitutional rights of the individual in the Republic of Azerbaijan// Advokatskaya praktika (RINTs), Moscow. – 2020, No. 5, pp . 53-58.

9. Ershov V.A.Article-by-article commentary on the Constitution of the Russian Federation.Moscow, GrossMedia Publ., 2014,207 p.

10. Constitution. 1978 Constitution of the Azerbaijan SSR (Fundamental Law). Azerbaijan. State symbols and attributes.P. 58 – 85. Presidential Library of the Affairs Department of the President of the Republic of Azerbaijan. Available at: https://files.preslib.az/projects/remz/pdf/atr_kons.pdf. (in Azerbaijani).

**Qurbanov H.S., Əliyev A.C.**♦

**DOI:10.25108/2304-1730-1749.iolr.2023.72.67-76**
**UOT : 347.965.4**

## Azərbaycan Respublikasında vəkilliyin və vəkillik fəaliyyətinin konstitusion əsasları

**Xülasə:**Məqalə vəkilliyin və vəkillik fəaliyyətinin konstitusion əsaslarına həsr edilmişdir. Aparılmış tədqiqat nəticəsində müəllif belə qənaətə gəlir ki, vəkillik müasir Azərbaycan dövlətinin və vətəndaş cəmiyyətinin mühüm institututlarından biridir. Vəkillik və vəkillik fəaliyyəti qanunçuluq, bərabərlik, demokratiya, insan və vətəndaş hüquq və azadlıqlarının prioriteti və s. konstitusiya prinsiplərinə, eləcədə müstəqillik, özünüidarəetmə, konfidensiallıq, vəkil etikasına riayət edilməsi, vəkillərlə hüquqi yardım almaq üçün onlara müraciət edən şəxslər arasında münasibətlər könüllüyü və digər xüsusi sahəvi prinsiplərə əsaslanır. Müəllifin fikrincə, vəkilliyin və vəkillik fəaliyyətinin göstərilən prinsiplərə əsaslanması, daim dəyişən sosial münasibətlər şəraitində onların potensialının üzə çıxarılması, vəkillik institutunun və vəkillik fəaliyyətinin daha da təkmilləşdirilməsinə kömək edəcəkdir.

**Açar sözlər:** vəkillik institutu; vəkil; vəkillik fəaliyyəti; müdafiəçi; ixtisaslı hüquqi yardım; konstitusion müdafiə hüququ.

Azərbaycan Respublikasında vəkillik institutunun formalaşması və fəaliyyət göstərməsi Azərbaycannın dövlət müstəqilliyini əldə etməsi ilə qırılmaz şəkildə bağlıdır. Belə ki, 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsində (referendumda) Azərbaycan Respublikasının Konstitusiyası qəbul olumuş, 2002, 2009 və 2016-cı illərdə isə ümumxalq səsvermələrin (referendumların) keçirilməsi yolu ilə Konstitusiyaya müvafiq əlavə və dəyişikliklər edilmişdir. 28 dekabr 1999-cu ildə“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, 14 iyul 2000-ci ildə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi qəbul olunmuşdur.

♦**Qurbanov Habil Surxay oğlu -** hüquq üzrə elmlər doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqının sədri (Azərbaycan).E-mail: professorqurbanov@yandex.com
**Əliyev Aydın Cəmil oğlu -** hüquq üzrə fəlsəfə doktoru, dosent, Hüquq və İnsan Haqları İnstitutu publik hüquqi şəxsin ekspert şurasının üzvü (Azərbaycan). E-mail: aydin.vk@gmail.com

Qeyd olunan qanunvericilik aktlarından hər biri “Vəkillər və vəkillik fəaliyyəti haqqında” qanunvericiliyin tərkib hissəsi olmaqla vəkillik institutunun formalaşması və fəaliyyət göstərməsi üçün həlledici əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasnın Konstitusiyası beynəlxalq hüququn hamılıqla tanınmış prinsiplərinə uyğun olaraq insanın ayrılmaz hüquq və azadlıqlarını normativ olaraq təsbit edir. Konstitusiyanın III fəslinin normaları ilə (24-71-ci maddələr) əsas insan və vətəndaş hüquq və azadlıqları müəyyən olunur. Həmin hüquq və azadlıqlarının dövlət tərəfindən müdafiəsini təmin edən Konstitusiya hər kəsə qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək, zəruri hallarda ixtisaslı hüquqi yardım almaq və müdafiəçinin köməyindən istifadə etmək hüquqları verir (26 və 61-ci maddələr).

Azərbaycan Respublikasnın Konstitusiyası ilə bəyan edilmiş hüquqi yardım almaq hüququnun təmin edilməsində Azərbaycan Respublikasının vəkillik institutu xüsusi yer tutur.Hüquqi yardımın göstərilməsi Konstitusiyanın hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququna təminat verən61-ci maddəsinin I hissəsinə əsaslanır. Lakinqeyd etmək lazımdır ki, insan və vətəndaşın hüquqi statusunu müəyyən edən ən mühüm normalardan biri olan bu konstitusiya norması bir qədər mücərrəd xarakter daşıyır. “Belə ki, həmin norma ilə təminat verilən hüquqi yardımın kim tərəfindən göstəriliсəyi Konstitusiyada müəyyən olunmur. Ümumiyyətlə Konstitusiyada vəkillik institutunun adı çəkilmir. Başqa sözlə desək, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsində, ehtiyacı olan hər kəsə Konstitusiyailə bəyan edilmiş hüquqi yardımın göstərilməsində, eləcə də ədalət mühakiməsinin həyata keçirilməsində vəkilliyin rolu və funksional əhəmiyyəti Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmur, vəkillik institutunun yeri müəyyən edilmir”[8, s. 58]. Bundan fərqli olaraq, Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasının 173-cü maddəsindəvətəndaşlara və təşkilatlara hüquqi yardım göstərilməsi üçün vəkillər kollegiyasının fəaliyyət göstərdiyibəyan edilirdi [10, s. 83].

Təəssüflə qeyd etməliyik ki, Azərbaycan Respublikasının qüvvədə olan Konstitusiyasında belə norma nəzərdə tutulmur. Konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə təminat verən çoxsaylı normaların olmasına, həmin hüquq azadlıqların müdafiəsinə dövlət təminatının verilməsinə baxmayaraq, hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı fəaliyyətin hansı qurum tərəfindən həyata keçirilməli olduğuna aydınlıq gətirilmir. Ancaq Konstitusiyanın 26 və 61-ci maddələrinin məzmunuinsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin əsasən vəkilliyin və onun üzvü olan vəkillərin fəliyyət sahəsinə aid olduğunu müəyyən etməyə imkan verir. Belə ki, Konstitusiyanın 26-cı maddəsilə hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ və hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə dövlət tərəfindən təminat verildiyi, 61-ci maddədə isə hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququna malik olduğu, qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardımın ödənişsiz, dövlət hesabına göstərildiyi, eləcə də hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməkdə ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququnun olduğu bəyan edilir. Qeyd olunan sonuncu normanın məzmunundan görünür ki, burada cinayət mühakimə icraatı prosesində müdafiəçi funksiyasını icra edən prosessual şəxs – vəkil nəzərdə tutulur.

Məlumat üçün qeyd etməliyik ki, Ukrayna, Rusiya Federasiyası, Tacikistan Respublikası, Özbəkistan Respublikası və Qırğızıstan Respublikası kimi MDB üzvü olan dövlətlərin konstitusiyalarında hüquqi yardımın göstərilməsi və müdafiə hüququnun təmin edilməsi üçün vəkilliyin fəaliyyət göstərdiyi vurğulanır, digər MDB üzvü olan dövlətlərin konstitusiyalarında isə

müvafiq hallarda hər kəsin vəkilin (müdafiəçinin) köməyindən istifadə etmək hüququna malik olduğu təsbit olunur.

Zənnimizcə,Azərbaycan Respublikasının Konstitusiyasında hüquq müdafiə fəaliyyətinin əsas subyekti olan vəkillik institutuna dair normanın nəzərdə tutulmaması, hər kəsin Konstitusiya ilə təminat verilmiş hüquqi yardım almaq hüququnun və şəxsiyyətin Konstitusiya ilə müəyyən edilmiş hüquq və azadlıqlarının təmin edilməsində, ölkədə məhkəmə hakimiyyətinin fəaliyyətinin və ədalət mühakiməsinin həyata keçirilməsinin təmin edilməsində vəkilliyin rolunun müəyyən edilməməsi ciddi və aradan qaldırılması zəruri olan problemdir [8, s. 58].

Vəkillik – müasir hüquqi, sosial, demokratik dövlətin və vətəndaşcəmiyyətinin konstitusion hüquqi prinsiplər əsasında yaradılan və fəaliyyət göstərən ən mühüm institutudur.Qeyd olunan prinsiplərin vəkilliyə dair qanunvericiliyə və vəkillərin peşə fəaliyyətinə ardıcıl olaraq tətbiq edilməsi həmin institutun təkmilləşdirilməsinə və onun fəaliyyətinin səmərəliliyinin artırılmasına xidmət edir.Vəkillik vətəndaş cəmiyyətində insanın hüquq, azadlıq və mənafelərinin müdafiəsini təmin etməli olan ən mühüm institutudur. Vəkilliyin inkişaf səviyyəsi cəmiyyətdə demokratiyanın vəziyyətinin göstəricisi, insan hüquqlarının müdafiəsi vəziyyətinin əlamətlərindən biridir. Müasir Azərbaycan dövləti və cəmiyyəti şəraitində vəkillik institututun fəaliyyəti ilə bağlı sosial münasibətlərin formalaşması, inkişafı və təminatı mövcud Konstitusiya prinsiplərinə əsaslanır.

Vəkillik institutunun formalaşmasında və fəaliyyət göstətməsində qanunun aliliyi, müstəqillik, özünüidarəetmə, demokratizm, şəxsiyyətin hüquq və azadlıqlarının üstünlüyü və sair bu kimi konstitusiya prinsipləri mühüm rol oynayır. Onu da qeyd etmək lazımdır ki, ictimai münasibətlərin hüquqi tənzimlənməsinin əsasını da konstitusion hüquqi prinsiplər təşkil edir. Üstəlik, onların həyata keçirilməsi davamlı sosial inkişafatəminat verir.

Konstitusion prinsiplər– sosial əlaqələrin inkişafı hesabına obyektiv şəkildə formalaşan ictimai münasibətlərin konstitusion hüquqi tənzimlənməsinin əsasları və istiqamətləndiriciləridir. Onlar universallığı, sabitliyi və sistemli olmaları ilə fərqlənir.Onların əsas vəzifəsi hüquqi vasitələrin ictimai münasibətlərə razılaşdırılmış və səmərəli təsirini təmin etmək, zəruri hallarda isə hüquqi tənzimləmədə boşluq və uyğunsuzluqların qarşısını almaq üçün sosial münasibət subyektlərinin davranışının bilavasitə tənzimləyicisi kimi çıxış etməkdir.

Konstitusiya ilə bəyan edilmiş hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququna dair normaya bir daha qayıdaraq qeyd etməliyik ki, burada sual doğuran əsas problemlərdən biriqeyd olunan konstitusiya normasının mətnində “yüksək keyfiyyətli” anlayışının işlədilməsilə bağlıdır. Konstitusiyanın 61-ci maddəsinin mətnində bu anlayışın işlədilməsinin nətəcəsi olaraq “Vəkillər və vəkillik fəaliyyəti haqqında”Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində fiziki və hüquqi şəxslərin hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin müdafiəsi və onlara yüksək keyfiyyətli hüquqi yardım göstərilməsi vəkilliyin əsas vəzifələri kimi müəyyən olunur.Zənnimizcə, hər iki qanunvericilik aktının mətnində“yüksək keyfiyyətli” deyil, “ixtisaslı” termininin işlədilməsi daha düzgün olar, belə ki, istehsal və xidmət sahələri üçün daha məqbul olan “keyfiyyət” sözü hüququ yardımın səviyyəsini və mahiyyətini kifayət qədər əks etdirmir. Məlumat üçün qeyd etməliyik ki, MDB üzvü olan digər dövlətlərdən heç birinin nə konstitusiyasında, nə də vəkilliyə dair qanunvericilik aktında “yüksək keyfiyyətli hüquqi yardım” ifadəsi işlədilmir, “ixtisaslı hüquqi yardım” göstərilməsindən bəhs olunur. Bir məsələni də qeyd etmək lazımdır ki,vəkalət verən (müdafiə edilən) şəxs vəkilin (müdafiəçının) göstərdiyi hüquqi yardımın keyfiyyətini,bir qayda olaraq, yekun məhkəmə aktına görə müəyyən edir. Odur ki, uduzulmuş

prosesdə vəkilin yüksək keyfiyyətlihüquqi yardım göstərdiyindən danışmaq onun üçün inandırıcı görünə bilməz.

İxtisaslı hüquqi yardımın göstərilməsi qanunvericiliyə uyğun olaraq Vəkillər Kollegiyasına həvalə edilir. Vəkillik fəaliyyətinin özü hüquqlarını, azadlıqlarını və mənafelərini qorumaq, habelə ədalət mühakiməsinə çıxışı təmin etmək məqsədilə vəkil statusuna malik şəxslər tərəfindən fiziki və hüquqi şəxslərə peşəkar əsaslarla göstərilən ixtisaslı hüquqi yardım kimi müəyyən edilir [9, s. 71].

Azərbaycan Respublikasında vəkillik fəaliyyəti, ilk növbədə, Konstitusiyanın 61-ci maddəsinin müddəalarına əsaslanır. Qeyd olunduğu kimi, həmin maddənin I hissəsində hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun olduğu bəyan edilir[1, s. 20].Lakin belə hüquqi yardımın mahiyyəti, formaları və s. açıqlanmır. Odur ki, sahəvi qanunvericiliyə müraciət etmək lazım gəlir.

Vəkillik fəaliyyətinin tərkib hissısi olan hüquqi yardım göstərilməsi“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin III hissəsində nəzərdə tutulan aşağıdakı funksiyaları əhatə edir:

– dövlət və qeyri-dövlət orqanlarında və təşkilatlarda, o cümlədən xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fiziki və hüquqi şəxslərin nümayəndəliyinin həyata keçirilməsi;

– hüquqi məsələlərə dair şifahi və yazılı məsləhətlər, izahatlar və arayışlar verilməsi;

– ərizələrin, şikayətlərin və hüquqi xarakterli sənədlərin tərtib edilməsi;

– fiziki və hüquqi şəxslərə lazımi hüquqi yardım göstərilməsi, onların fəaliyyətinin hüquqi təminatının həyata keçirilməsi;

– digər növ hüquqi yardımın göstərilməsi [7].

Göründüyü kimi, Qanunda vəkilin göstərə biləcəyi hüququ yardımın növləri sadalanır, lakin bununla onun fəaliyyəti məhdudlaşdırılmır, digər növ hüquqi yardımın göstərilməsi də istisna olunmur. Bu o demkdir ki, vəkilə qanunla qadağan olunmayan müxtəlif növ hüququ yardımın göstərilməsinə səlahiyyət verilir. Burada əsas tələb belə hüquqi yardımın qanuna zidd olmaması və bu zaman qanunla qadağan olunmuş üsul və vasitələrdən istifadə edilməməsidir.

Konstitusiyanın 61-ci maddəsinin II hissəsilə müəyyən edildiyi kimi, qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir[1, s. 21]. Burada da məsələnin mahiyyətinə aydınlıq gətirilməsi üçün, sahəvi qanunvericilik aktlarına müraciət etməli oluruq. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 20-ci maddəsində göstərildiyi kimi, inzibati qaydada tutulmuş şəxslərə, cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxslərə və məhkəmədə vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə hər hansı bir məhdudiyyət qoyulmadan vəkil tərəfindən göstərilən hüquqi yardım dövlət hesabına həyata keçirilir [7].

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 14.5-ci maddəsilə müəyyən edilir ki, “bu Məcəllə ilə müəyyən edilmiş hallarda, vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxs maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi üçün dövlət hesabına peşəkar hüquqi yardım almaq hüququna malikdir” [5].

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 19.4.4-cü maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin, şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə müdafiə olunmaq, yaxud müdafiəçinin haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, pulsuz hüquqi yardım almaq hüququnu təmin etməlidir[2, s. 60].

Həmin Məcəllənin 90.7.9-cu maddəsinə əsasən, şübhəli şəxs “müdafiəçinin yardımından pulsuz istifadə etmək, öz vəsatəti əsasında müdafiəçinin iştirakı ilə ifadə vermək” hüququna malikdir [2, s. 122].

Həmin Məcəllənin 91.5.5-ci maddəsinə əsasən, təqsirləndirilən şəxs müdafiəçinin yardımından pulsuz istifadə etmək hüququna malikdir [2, s. 125].

Göründüyü kimi, Konstitusiya ilə bəyan edilmiş hər kəcin ödənişsiz, dövlət hesabına hüquqi yardım almaq hüququ sahəvi qanunvericilik aktlarında bir daha konkretləşdirilmişdir ki, bu da təhlil olunan konstitusuon normanın düzgün təfsir olunması və tətbiq edilməsi üçün olduqca əhəmiyyətlidir.

Cinayət işləri üzrə təqsirləndirilən şəxsin müdafiə hüququnun təmin edilməsi ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsiplərindən biri olmaqla, Konstitusiyanın 61-ci maddəsinin III hissəsilə müəyyən edildiyi kimi, “hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ”nun bəyan edilməsinə əsaslanır [1, s. 21].

Qanunun 4-cü maddəsinin II hissəsilə müəyyən edildiyi kimi, aşağıda göstərilən fəaliyyət növlərivəkillik fəaliyyətinin müstəsna dairəsinə aid edilir:

– cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi;

– məhkəmənin baxdığı inzibati xəta haqqında iş üzrə icraatda fiziki şəxsin müdafiəsi;

– mülki işlər və inzibati mübahisələrə dair işlər üzrə şəxsin Azərbaycan Respublikası Ali Məhkəməsində təmsil edilməsi;

– hüquq və azadlıqlarının pozulması ilə bağlı şikayət vermiş ərizəçinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində təmsil edilməsi [7].

Göründüyü kimi, Azərbaycan Respublikasında hər kəsə hüquqi yardımın göstərilməsi, eləcə də hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiə hüquqnun təmin edilməsiilə bağlı vəkillik fəaliyyəti ilk növbədə Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinin müddəalarına əsaslanır. Lakin, eyni zamanda, qeyd etmək lazımdır ki, cinayət təqibinə məruz qalmış hər bir şəxsin müdafiə hüququna Azərbaycan Respublikasının Konstitusiyasının bir sıra digər maddələrinin müddəaları ilə də təminatverilir. Bu qəbildən olan konstitusiya normaları sırasına Azərbaycan Respublikası Konstitusiyasının insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olmasına dair 12-ci maddəsini, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquq və azadlıqlara malik olmasını müəyyən edən(digər şəxslərin hüquq və azadlıqlarını pozmamaq şərtilə)24-cü maddəsini, hamının qanun və məhkəmə qarşısında bərabərliyinə təminat verən 25-ci maddəsini, hər kəsin yaşamaq hüququna təminat verən 27-ci maddəsini, hər kəsin azadlıq hüququna təminat verən 28-ci maddəsini, hər kəsin şəxsi toxunulmazlıq hüququna təminat verən 32-ci maddəsini, hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququna təminat verən 46-cı maddəsini, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilməsinə dair 60-cı maddəsini, təqsirsizlik prezumpsiyasına və qanunsuz üsul və vasitələrlə əldə edilmiş sübutlardan istifadə olunmasının yolverilməzliyinə dair 63-cü maddəsini, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarını gözləməyin və qorumağın qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu kimi müəyyən edilməsinə, Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquq və azadlıqlarının birbaşa qüvvədə olmasına, hər kəsin qanunla qadağan olunmayan hərəkətləri etmək azadlığına və qanunla nəzərdə

tutulmayan hərəkətləri etməyə məcbur edilmənin yolverilməzliyinə təminat verilməsinə dair 71-ci maddəsini, eləcə də məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsini müəyyən edən 127-cü maddəsini misal göstərmək olar.

Vəkillik fəaliyyətinin Azərbaycan Respublikası Konstitusiyasının normaları ilə müəyyən edilmiş əsasları sonrakı mərhələlərdə müvafiq sahəvi qanunvericilik aktlarında daha da dəqiqləşdirilmiş və konkretləşdirilmişdir ki, bu da həmin fəaliyyətin zəruri tələblər səviyyəsində həyata keçirilməsinə imkan verir.

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsilə müəyyən edildiyi kimi, vəkilliyə dair qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından**,** eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir [7].

Yuxarıla qeyd olunduğu kimi, fiziki və hüquqi şəxslərə peşəkar səviyyədə ixtisaslı hüquqi yardım göstərilməsi, onların hüquq və azadlıqlarının, eləcə də qanuni mənafelərinin müdafiəsi vəkilliyin əsas vəzifələridir.

Vəkillik fəaliyyətinin həyata keçirilməsinin ümumi qaydaları "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin müddəaları ilə müəyyən olunur.

Vəkillik fəaliyyətinin təminatları Qanunun 7-ci maddəsində nəzərdə tutulur.

Peşə fəaliyyətini həyata keçirən vəkilin müstəqilliyinin hüquqi təminatları, eləcə də onun hüquq və vəzifələri "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının İnzibati Xətalar, İnzibati Prosessual, Mülki-Prosessual və Cinayət-Prosessual, məcəllələri ilə tənzimlənir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 64.3-cü maddəsinə əsasən, hüquqi şəxs tərəfindən törədilmiş inzibati xətalar haqqında işlərə hüquqi şəxsin nümayəndəsinin və ya vəkilinin iştirakı ilə baxılır. İnzibati xəta haqqında iş üzrə məhkəmə prosesinə fiziki şəxsin müdafiəçisi qismində yalnız vəkil, zərər çəkmiş fiziki şəxsin nümayəndəsi qismində isə onun yaxın qohumu və ya vəkili buraxılır(65.1-1-ci maddə). 65.1-1-ci maddədə nəzərdə tutulan hallar istisna olmaqla, inzibati xəta haqqında iş üzrə icraatda müdafiəçivə nümayəndə qismində vəkil və ya digər şəxslər iştirak edə bilərlər.İnzibati xəta haqqında iş üzrə icraatda vəkilin məcburi iştirakınıtələb edən hallar İnzibati Xətalar Məcəlləsinin 66-cı maddəsinin müddəaları ilə müəyyən olunur[3].

Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 31.1-ci maddəsinə əsasən, inzibati xəta haqqında iş üzrə məhkəmə icraatında proses iştirakçıları vəkillə təmsil olunmaq hüququna malikdirlər. Vəkilin və ya nümayəndənin haqqı inzibati xəta haqqında iş üzrə çəkilən prosessual xərclərə aid edilir və onun ödənilməsilə bağlı məsələlər Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 108-ci maddəsilə həll edilir[4].

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinə əsasən, Azərbaycan Respublikasının ərazisində mülki prosesdə vəkil kimi Azərbaycan Respublikasında müəyyən olunmuş qaydada səlahiyyəti təsdiq olunmuş vəkillər iştirak edirlər (66-cı maddə).

Kassasiya və əlavə kassasiya şikayətləri, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizələr yalnız vəkil tərəfindən tərtib edildikdə icraata qəbul edilir. Kassasiya və əlavə kassasiya qaydasında, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxıldıqda işdə iştirak edən şəxslər məhkəmə iclaslarında yalnız vəkillə birgə iştirak edirlər (67.1-ci maddə).

Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən olunmuş müdafiə hüququnun həyata keçirilməsində vəkillik fəaliyyəti xüsusi rol oynayır. Yuxarıda qeyd olunduğu kimi, cinayət işləri üzrə şübhəli bilinən və təqsirləndirilən şəxslərin müdafiəsi müstəsna olaraq vəkillik fəaliyyəti ilə təmin edilir. Vəkillik fəaliyyətinin prosessual əsasları Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin normaları ilə müəyyən olunur.

Vəkilin fəaliyyətininqanuna uyğun olması tələbikonstitusion qanunçuluq prinsipinə əsaslanır. Qanunçuluq prinsipi bütün hüquq subyektlərinin öz fəaliyyətlərində qanun normalarını rəhbər tutmaları deməkdir. Azərbaycan Respublikasının vəkillik institutu normativ hüquqi aktların tələblərinə uyğun olaraq təşkil edilir və fəaliyyət göstərir. Vəkil öz fəaliyyətində qanunvericilik aktlarının tələblərini rəhbər tutur. Qanunun tələblərini pozmuş vəkil buna görə hüquqi məsuliyyət daşıyır. Bu baxımdan vəkil digər hüquq subyektindən fərqlənmir. Vəkillik fəaliyyəti ilə məşğul olan şəxs Azərbaycan Respublikası qanunvericiliyinin pozulmasına görə müxtəlif növ məsuliyyətə, yənimaddi, intizam, inzibati və ya cinayət məsuliyyətinə cəlb edilə bilər.

Vəkilin peşə hüquqları, şərəf və ləyaqəti qanunla qorunur.

Cinayət prosesində iştirak edən vəkilin müdafiəsi “Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir [6].

Azərbaycan Respublikasında vəkilliyin təşkilinin və fəaliyyətinin əsas prinsiplərindən biri də vəkil sirrinin qorunmasıdır. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununun 17-ci maddəsilə müəyyən edildiyi kimi, peşə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar vəkilin əldə etdiyi məlumatlar, verdiyi məsləhətlər və arayışlar vəkil sirrini təşkil edir.

Vəkil hüquqi yardımın göstərilməsi ilə əlaqədar olaraq ona məlum olmuş hallar barədə, şahid qismində çağırıla və dindirilə bilməz. Göstərilən hallar barədə vəkil izahat verməməli və ona etibar edən şəxsin bildirdiyi məlumatı yaymamalıdır.

Vəkil sirrini təşkil edən məlumatlar vəkilin hüquqi yardım göstərdiyi cinayət, mülki və inzibati işlər üzrə, həmçinin həmin vəkilin iştirakı ilə aparılan məhkəmə prosesində sübut kimi qiymətləndirilə bilməz [7].

Beləliklə, yuxarıda qeyd olunanlara və müvafiq qanunvericilik aktlarına əsaslanaraq belənəticəyə gəlirik ki, vəkillik müasir Azərbaycan dövlətinin və vətəndaş cəmiyyətinin mühüm institututlarından biridir.Vəkillik və vəkillik fəaliyyəti qanunçuluq, bərabərlik, demokratiya, insan və vətəndaş hüquq və azadlıqlarının prioriteti və s. konstitusiya prinsipləri,eləcədə müstəqillik, özünüidarəetmə, konfidensiallıq, vəkil etikasına riayət edilməsi, vəkillərlə hüquqi yardım almaq üçün onlara müraciət edən şəxslər arasında münasibətlər könüllüyü və digər xüsusi sahəvi prinsiplər əsasında həyata keçirilir.Vəkilliyin təşkili və fəaliyyətində sahələrarası xarakter daşıyan konstitusiya prinsipləri də öz əksini tapır.

Zənnimizcə, vəkilliyin və vəkillik fəaliyyətinin göstərilən prinsiplərə əsaslanması, daim dəyişən sosial münasibətlər şəraitində onların potensialının üzə çıxarılması Azərbaycan Respublikasında vəkillik institutunun və vəkillik fəaliyyətinin daha da təkmilləşdirilməsinə kömək edəcəkdir.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı: Hüquq Yayın Evi,2018.- 92 s.

2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi.-Bakı: Qanun nəşriyyatı,2022. -640 s.

3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun.az/ framework/46960.

4. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun. az/framework/46956.

5. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46945.

6.Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu. [Elektron resurs].URL: https://e-qanun.az/framework/5098.

7.Vəkillər və vəkillik fəaliyyəti haqqındaAzərbaycan Respublikasinin Qanunu.[Elektron resurs]. URL: https://e-qanun.az/framework/257.

8.Алиев А.Д. Об определении места адвокатуры в обеспечении конституционных прав личности в Азербайджанской Республике // Адвокатская практика (РИНЦ), Москва. – 2020, № 5.-С. 53-58.

9.Ершов В.А.Постатейный комментарий к Конституции Российской Федерации.– М.: ГроссМедиа, 2014.-207 с.

10. Konstitusiya. Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyası (Əsas Qanunu). Azərbaycan. Dövlət rəmzləri və atributları, C 58 – 85. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. [Elektron resurs]. URL: https://files.preslib.az/projects/ remz/pdf/atr_kons.pdf.

**Курбанов Г.С., Алиев А.Д.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.72.67-76**
**UOT : 347.965.4**

## Конституционные основы адвокатуры и адвокатской деятельности в Азербайджанской Республике

**Аннотация:** Статья посвящена конституционным основам адвокатуры и адвокатской деятельности. В результате проведенного исследования автор приходит к выводу, что адвокатура является одним из важных институтов современного Азербайджанского государства и гражданского общества. Адвокатура и адвокатская деятельность основываются на таких конституционных принципах как законность, равенство, демократия, приоритет прав и свобод человека и гражданина, и т.п., а также на независимости, самоуправлении, конфиденциальности, соблюдении адвокатской этики, добровольности отношений между адвокатами и лицами, обращающимися к ним за юридической помощью и других специальных отраслевых принципах. По мнению автора, базирование адвокатуры и адвокатской деятельности на указанных принципах, раскрытие их потенциала в условиях постоянно меняющихся

♦**Курбанов Габил Сурхай оглы –**доктор юридических наук, профессор, председатель Независимого Профсоюза работников НАНА **(**Азербайджан). E-mail: professorqurbanov@yandex.com
**Алиев Айдын Джамиль оглы -** доктор философии права, доцент, член экспертного совета публичного юридического лица «Институт права и прав человека» (Азербайджан). E-mail: aydin.vk@gmail.com

общественных отношений, будет способствовать дальнейшему совершенствованию института адвокатуры и адвокатской деятельности.

**Ключевые слова:** институт адвокатуры; адвокат; адвокатская деятельность; защитник; квалифицированная правовая помощь; конституционная право на защиту.

## Библиография

1. Конституция Азербайджанской Республики. – Баку: Хугуг Яйын Еви, 2018. – 92 с. (на азерб. яз.).

2. Уголовно-процессуальный кодекс Азербайджанской Республики. – Баку: Ганун, 2022, 640 с. (на азерб. яз.).

3.Кодекс административных правонарушений Азербайджанской Республики. [Электронный ресурс]. URL: https://e-qanun.az/ framework/46960(на азерб. яз.).

4. Кодекс административных правонарушений Азербайджанской Республики. [Электронный ресурс].URL: https://e-qanun. az/framework/46956 (на азерб. яз.).

5. Гражданский процессуальный кодекс Азербайджанской Республики. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/46945 (на азерб. яз.).

6.Закон Азербайджанской Республики о государственной защите лиц, участвующих в уголовном судопроизводстве. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/5098 (на азерб. яз.).

7.Закон Азербайджанской Республики Об адвокатах и адвокатской деятельности. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/257 (на азерб. яз.).

8.Алиев А.Д. Об определении места адвокатуры в обеспечении конституционных прав личности в Азербайджанской Республике // Адвокатская практика (РИНЦ), Москва. – 2020, № 5.-С. 53-58.

9.Ершов В.А.Постатейный комментарий к Конституции Российской Федерации.– М.: ГроссМедиа, 2014.-207 с.

10. Конституция. Конституция Азербайджанской ССР 1978 года (Основной Закон). Азербайджан. Государственные символы и атрибуты. С 58- 85. Президентская библиотека Управления делами Президента Азербайджанской Республики.[Электронный ресурс]. URL: https://files.preslib.az/projects/ remz/pdf/atr_kons.pdf (на азерб. яз.).